## Qarabağ uğrunda döyüşən qəhrəmanları unutmayaq!

# Şahlar Şükürov (1952-1990)

*Azərbaycanın Milli Qəhrəmanı, Qarabağ müharibəsi şəhidi Şahlar Əvəz oğlu Şükürov 17 may 1952-ci ildə Kəlbəcər rayonunun Zülfüqarlı kəndində anadan olmuşdur.* Orta məktəbi əla qiymətlərlə bitirən Şahlar Şükürov Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna qəbul olunur və 1972-ci ildə oranı əla qiymətlərlə başa vurur. 1972-ci ildə Ş.Şükürov Sovet Ordusu sıralarında hərbi xidmətə çağırılır. Ordu sıralarından tərxis olunduqdan sonra Bakıdakı islah-əmək müəssisələrinin birində işləmişdir. Sonra fəaliyyətini Ucar rayon Daxili işlər şöbəsində davam etdirmişdir. Sonra Rostov Milis Akademiyasında təhsil alır. Əmək fəaliyyətinə Ucar rayon Milis şöbəsində əməliyyat rəisi



kimi başlayır. 38 yaşında mayor rütbəsinə yüksəlir və Zərdab rayon Milis şöbəsinə rəis müavini təyin edilir.

**O, tez-tez döyüş bölgələrinə gedər, torpaqlarımızın bütövlüyü uğrunda qaynar döyüşlərə atılardı. 1990-cı il 11 iyulda Tərtər-Kəlbəcər yolu ilə hərəkət edən maşın karvanı erməni işğalçılarının hücumuna məruz qalır. Burada son nəfəsinəcən vuruşan Şahlar qəhrəmancasına həlak olur.**

Şahlar Şükürov ailəli idi, iki övladı yadigar qaldı.

**Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə Şükürov Şahlar Əvəz oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.**

Kəlbəcər rayonunun Zülfuqarlı kəndində dəfn edilib.

Zərdab rayonunda adına küçə var. Buradakı məktəblərdən biri onun adını daşıyır. Şahlar Şükürova həsr olunmuş "Bir elin Şahları" adlı film də çəkilmişdir.